# Beynəlxalq daşımalarda iştirak edən xarici dövlətlərə mənsub avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisində hərəkətinin tənzimlənməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

*№ 90*

*Bakı şəhəri, 13 avqust 1997-ci il*

Beynəlxalq avtomobil daşımaları iştirakçıları üçün lazımi şərait yaratmaq, xarici dövlətlərə mənsub avtomobil nəqliyyatının hərəkət rejimini nizamlamaq və təhlükəsizliyini yüksəltmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ərazisinə daxil olarkən, beynəlxalq daşımalarda iştirak edən xarici dövlətlərə mənsub avtonəqliyyat vasitələrinin mühərriklə texnoloji bağlı olan yanacaq baklarındakı 200 (iki yüz) litr yanacaq rüsumsuz keçirilir, 200 (iki yüz) litrdən artıq yanacaq olduqda, hər bir litr artıq benzin üçün 0,3 ABŞ dolları məbləğində, hər bir artıq dizel yanacağı üçün isə 0,2 ABŞ dolları məbləğində gömrük rüsumu sərhəd-nəzarət buraxılış məntəqələrindəki gömrük orqanlarına ödənilir. Göstərilən məbləğləri xarici avtodaşıyıcılar Azərbaycan Respublikası Milli Bankının həmin an üçün müəyyən etdiyi məzənnə üzrə manatla ödəyirlər.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi:

Azərbaycan Respublikası ərazisinə daxil olan və beynəlxalq daşımalarda iştirak edən avtodaşıyıcıların mühərriklə texnoloji bağlı olan yanacaq baklarında yanacağın miqdarını müəyyən etmək üçün lazımi cihaz və avadanlıqların alınmasını bir ay müddətində təmin etsin;

Azərbaycan Respublikasının ərazisinə daxil olan beynəlxalq daşımalarda iştirak edən xarici ölkələrin yük avtonəqliyyat vasitələrinin sərhəd-nəzarət buraxılış məntəqələrində «Dövlət Yol Fondu haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qapanda çəkilməsini təmin etsin, qapan olmayan sərhəd-nəzarət buraxılış məntəqələrində onların alınıb quraşdırılması işini 1998-ci il yanvar ayının 1-nə kimi başa çatdırsın.

3. «Azəravtonəqliyyat» Dövlət Konserni Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə birlikdə:

xarici dövlətlərin yük avtodaşıyıcılarına kompleks agent xidməti əməliyyatlarının aparılmasını (qarşılamaq, sənədlərin tərtibatı, gömrük əməliyyatları və s.) təşkil etsin;

xarici dövlətlərin beynəlxalq daşımalarda iştirak edən avtonəqliyyat vasitələrini marşrut xəritələrində göstərilən hərəkət marşrutu üzrə yerləşən terminallarda müvafiq dayanacaqlarla təmin etsin.

4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi yol hərəkəti təhlükəsizliyini təmin etmək məqsədilə yüksək yükgötürmə qabiliyyətinə malik olan avtonəqliyyat vasitələrinin, beynəlxalq və şəhərlərarası sərnişin avtobuslarının respublikanın magistral avtomobil yollarında sutkanın gecə vaxtı hərəkətinə məhdudiyyət qoysun.

5. Bu qərar 1997-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**A.RASİZADƏ**

## Azərbaycan Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrində daşınan yanacağın miqdarının tənzimlənməsi haqqında

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**
**№ 339**

*Bakı şəhəri, 3 avqust 2018-ci il*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ərazisini tərk edən avtonəqliyyat vasitələrinin mühərriklə texnoloji bağlı olan texniki pasportunda nəzərdə tutulmuş baklarının tutumunun miqdarından artıq keçirilən benzinin və (və ya) dizel yanacağının hər 1 (bir) litri üçün 0,6 ABŞ dolları məbləğində spesifik gömrük rüsumu alınır.

2. Bu qərarın 1-ci hissəsində göstərilən məbləğ avtonəqliyyat vasitəsinin mülkiyyətçisi və ya qanunvericiliklə müəyyən edilmiş qaydada idarəetmə hüququ olan şəxs tərəfindən gömrük-sərhəd buraxılış məntəqələrindəki gömrük orqanlarına bank, poçt və ya plastik kart vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının həmin gün üçün müəyyən etdiyi məzənnəyə uyğun olaraq manatla ödənilir.

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov**

Bakı şəhəri, 3 avqust 2018-ci il